*Elmi Tədqiqat*
May 2026, Cild: 6, Sayı: 5, s. 86–90
*Scientific Research*
May 2026, Volume: 6, Issue: 5, pp. 86–90
DOI: https://doi.org/10.36719/2789-6919/58/86-90

# Azərbaycan və xarici ölkə təcrübəsində məktəbdaxili qiymətləndirmə modelləri

**Bəlqız Musayeva**

***Xülasə.*** *Məktəbdaxili qiymətləndirmə müasir təhsil sistemində yalnız şagird nailiyyətlərinin ölçülməsi vasitəsi kimi deyil, eyni zamanda, təlim prosesini istiqamətləndirən və öyrənməni dəstəkləyən mühüm pedaqoji mexanizm kimi çıxış edir. Azərbaycanda kurikulum islahatları bu sahədə yeni yanaşmaların formalaşmasına şərait yaratmış, formativ və summativ qiymətləndirmə modellərinin tətbiqini genişləndirmişdir. Nəticədə, şagirdlərin bilik və bacarıqlarının daha sistemli və mərhələli şəkildə izlənilməsi mümkün olmuşdur. Bununla belə, bəzi təhsil müəssisələrində qiymətləndirmənin formal xarakter daşıması və əsasən bal yönümlü yanaşmanın üstünlük təşkil etməsi kimi müəyyən çətinliklər qalmaqdadır.*
*Xarici ölkə təcrübəsində, xüsusilə Finlandiya, Sinqapur və Böyük Britaniya kimi təhsil sistemlərində qiymətləndirmə daha çox inkişafyönümlü və şagird mərkəzli model üzərində qurulmuşdur. Burada əsas diqqət nəticədən çox prosesə yönəlir, şagirdə verilən keyfiyyətli rəy, özünüqiymətləndirmə və qarşılıqlı qiymətləndirmə kimi yanaşmalar geniş tətbiq olunur. Bu fərqlər göstərir ki, müxtəlif təhsil sistemlərində məqsəd eyni olsa da, qiymətləndirmənin həyata keçirilmə formaları və yanaşma prinsipləri fərqlənir. Beynəlxalq təcrübənin öyrənilməsi isə yerli təhsil sistemində qiymətləndirmə mexanizmlərinin daha da təkmilləşdirilməsi üçün əhəmiyyətli imkanlar yaradır.*

***Açar sözlər:*** *məktəbdaxili qiymətləndirmə, formativ qiymətləndirmə, summativ qiymətləndirmə, kurikulum, təhsil sistemi, şagird nailiyyətləri, kompetensiya əsaslı təhsil, qiymətləndirmə modelləri*

---

Bakı Slavyan Universiteti, magistrant, Bakı, Azərbaycan
E-poçt: musayevabalqiz@gmail.com
Daxil oldu: 2 Fevral 2026; Qəbul edildi: 13 May 2026; Onlayn dərc edildi: 30 May 2026
© Müəllif(lər) 2026. Bu, Creative Commons Attribution-NonCommercial 4.0 Beynəlxalq Lisenziyası (CC BY-NC 4.0) şərtləri altında paylanan açıq girişli məqalədir.

# Intra-school Assessment Models in Azerbaijani and Foreign Experience

**Balgız Musayeva**

***Abstract.*** *School-based assessment in modern education is no longer limited to measuring student achievement; it also functions as an important pedagogical mechanism that guides the learning process and supports student development. In Azerbaijan, curriculum reforms have contributed to the formation of new approaches in this field and have expanded the use of formative and summative assessment models. As a result, students' knowledge and skills are monitored in a more systematic and step-by-step manner. However, certain challenges still remain in some educational settings, such as the formal application of assessment and the dominance of grade-oriented practices.*

*In international practice, particularly in education systems such as Finland, Singapore, and the United Kingdom, assessment is more development-oriented and student-centered. The focus is placed on the learning process rather than only the final result, with strong emphasis on qualitative feedback, self-assessment, and peer-assessment approaches. These differences show that although the overall purpose of assessment is similar across systems, the principles and methods of implementation vary significantly. Studying international experience creates important opportunities for further improving assessment practices in the local education system.*

***Keywords:*** *school-based assessment, formative assessment, summative assessment, curriculum, education system, student achievement, competency-based education, assessment models*

---

Baku Slavic University, Master's student, Baku, Azerbaijan
E-mail: musayevabalqiz@gmail.com
Received: 2 February 2026; Accepted: 13 May 2026; Published online: 30 May 2026
© Author(s) 2026. This is an open-access article distributed under the terms of the Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0).

## Giriş

Müasir dövrdə təhsil sistemində baş verən dəyişikliklər qiymətləndirmə anlayışına yanaşmanı da əhəmiyyətli şəkildə dəyişdirmişdir. Əgər əvvəlki mərhələlərdə qiymətləndirmə daha çox şagirdin əldə etdiyi nəticələrin yoxlanılması məqsədi daşıyırdısa, bu gün həmin proses təlimin keyfiyyətini müəyyən edən əsas amillərdən biri kimi qəbul olunur. Artıq qiymətləndirmə yalnız yekun nəticəni göstərən vasitə deyil, şagirdin inkişafını izləyən, müəllimin fəaliyyətini istiqamətləndirən və təlim prosesinin səmərəliliyini artırmağa xidmət edən pedaqoji mexanizm hesab edilir. Bu baxımdan məktəbdaxili qiymətləndirmə təhsil sistemində xüsusi əhəmiyyətə malik olan istiqamətlərdən biridir. Məktəbdaxili qiymətləndirmə şagirdin bilik və bacarıqlarının davamlı şəkildə müşahidə olunmasına əsaslanır. Bu model tədris prosesində yalnız nəticənin deyil, öyrənmə mərhələlərinin də qiymətləndirilməsinə imkan yaradır. Müəllim gündəlik fəaliyyət zamanı şagirdin mövzunu mənimsəmə səviyyəsini, düşünmə qabiliyyətini, praktik fəaliyyətini və ümumi inkişaf dinamikasını izləyə bilir. Bu isə təlim prosesinin daha çevik təşkil olunmasına və şagirdin fərdi xüsusiyyətlərinin nəzərə alınmasına şərait yaradır. Xüsusilə müasir təhsil yanaşmalarında qiymətləndirmənin motivasiyaedici xarakter daşıması, şagirdin özünü inkişaf etdirməsinə stimul verməsi vacib hesab olunur.

Son illərdə Azərbaycan təhsil sistemində həyata keçirilən islahatlar məktəbdaxili qiymətləndirmənin məzmununa və tətbiq mexanizmlərinə də təsir etmişdir. Kurikulum əsaslı təhsil modelinə keçid nəticəsində qiymətləndirmə prosesində yeni yanaşmalar formalaşmış, şagirdin yalnız nəzəri biliyinin deyil, eyni zamanda, praktik bacarıqlarının və kompetensiyalarının müəyyənləşdirilməsinə diqqət artırılmışdır. Təhsil prosesində tətbiq olunan formativ və summativ qiymətləndirmə mexanizmləri müəllim və şagird münasibətlərində yeni əməkdaşlıq mühiti yaratmışdır.

Beynəlxalq təcrübədə də məktəbdaxili qiymətləndirmə təhsilin keyfiyyət göstəricilərindən biri kimi dəyərləndirilir. Bir sıra ölkələrdə qiymətləndirmə prosesində şagirdin fərdi inkişafı, yaradıcı düşünməsi və sərbəst qərarvermə bacarıqları ön plana çəkilir. Müxtəlif ölkələrin təcrübəsi göstərir ki, düzgün təşkil olunmuş məktəbdaxili qiymətləndirmə modeli şagirdin təlimə marağının artırılmasına, müəllimin fəaliyyətinin təkmilləşdirilməsinə və ümumilikdə təhsil nəticələrinin yüksəlməsinə müsbət təsir göstərir. Azərbaycan təhsil sistemində məktəbdaxili qiymətləndirməyə yanaşma son illərdə əhəmiyyətli şəkildə dəyişmişdir. Əvvəllər qiymətləndirmə əsasən şagirdin mövzunu nə dərəcədə əzbərlədiyini müəyyən etməyə xidmət edirdisə, hazırda daha çox şagirdin bacarıq və fəaliyyətinin

qiymətləndirilməsi diqqət mərkəzində dayanır. Kurikulum əsaslı təhsil modelinə keçid bu sahədə yeni yanaşmaların formalaşmasına səbəb olmuşdur (Məmmədov, 2019).

Məktəbdaxili qiymətləndirmənin tətbiqində əsas məqsədlərdən biri şagirdin təlim prosesindəki inkişafını davamlı şəkildə izləməkdir. Bu zaman müəllim yalnız yekun nəticəyə deyil, şagirdin dərs boyu göstərdiyi fəaliyyətə, müzakirələrdə iştirakına, problem həll etmə bacarığına və sərbəst düşünmə səviyyəsinə də diqqət yetirir. Xüsusilə formativ qiymətləndirmə dərs prosesində müəllim və şagird arasında qarşılıqlı əlaqənin güclənməsinə şərait yaradır (Abbasov, 2021). Azərbaycan məktəblərində tətbiq olunan kiçik summativ və böyük summativ qiymətləndirmələr şagird nailiyyətlərinin müəyyənləşdirilməsində geniş istifadə olunur. Bununla yanaşı, bəzi məktəblərdə layihə tapşırıqları, təqdimatlar və qrup işləri vasitəsilə aparılan qiymətləndirmələr də daha aktiv şəkildə tətbiq edilməyə başlanmışdır. Məsələn, bir sıra lisey və gimnaziyalarda şagirdlərin təqdimat bacarıqlarının ayrıca meyarlarla qiymətləndirilməsi onların tənqidi düşünmə və ünsiyyət qabiliyyətlərinin inkişafına müsbət təsir göstərir (Hüseynzadə, 2020).

Son illərdə elektron jurnal sistemlərinin tətbiqi də məktəbdaxili qiymətləndirmə prosesinə müəyyən yeniliklər gətirmişdir. Müəllimlər şagird nailiyyətlərini elektron platformalar üzərindən izləyə, valideynlər isə övladlarının nəticələri ilə daha operativ şəkildə tanış ola bilirlər. Bu sistem şəffaflığın artırılması baxımından mühüm addım hesab edilsə də, bəzi hallarda qiymətləndirmənin formal xarakter alması problemi də müşahidə olunur. Xüsusilə şagird sayının çox olduğu siniflərdə müəllimin hər bir şagirdə fərdi yanaşması çətinləşir (Əhmədov, 2022).

Azərbaycanlı pedaqoqlar qiymətləndirmənin yalnız nəzarət funksiyası daşımadığını, eyni zamanda, inkişafetdirici xarakterə malik olduğunu vurğulayırlar. Onların fikrincə, düzgün təşkil olunmuş məktəbdaxili qiymətləndirmə şagirdin özünəinamının formalaşmasına, müəllim-şagird münasibətlərinin sağlam şəkildə qurulmasına və ümumi təlim keyfiyyətinin yüksəlməsinə müsbət təsir göstərir (Ağayev, 2018). Xarici ölkələrin təhsil sistemlərində məktəbdaxili qiymətləndirmə daha çox şagirdin inkişafını dəstəkləyən və öyrənmə prosesini tənzimləyən vasitə kimi qəbul olunur. Bu yanaşmada əsas diqqət yalnız nəticəyə deyil, nəticəyə aparan prosesə yönəldilir. Bir çox inkişaf etmiş təhsil sistemlərində qiymətləndirmə "öyrənmə üçün qiymətləndirmə" (assessment for learning) prinsipi əsasında qurulur və şagirdin fərdi inkişaf trayektoriyası əsas götürülür.

Finlandiya təhsil sistemində məktəbdaxili qiymətləndirmə daha yumşaq və inkişafyönümlü xarakter daşıyır. İbtidai təhsil mərhələsində şagirdlərə rəqəmsal və ya ənənəvi qiymətlərdən çox, yazılı və şifahi rəy verilir. Müəllimlər şagirdin güclü və zəif tərəflərini konkret şəkildə göstərir və onun növbəti addımlarını istiqamətləndirirlər. Bu model şagirdlərdə rəqabət stressini azaltmaqla yanaşı, öyrənməyə marağı artırır (Sahlberg, 2015). Sinqapur təhsil sistemində isə məktəbdaxili qiymətləndirmə daha sistemli və mərhələli şəkildə həyata keçirilir. Burada formativ qiymətləndirmə dərsin ayrılmaz hissəsi kimi tətbiq olunur və şagirdlərin davamlı inkişafı izlənilir. Müəllimlər tez-tez "feedback" (geri bildirim) metodundan istifadə edərək şagirdlərin səhvlərini dərhal düzəltməyə imkan yaradırlar. Bu yanaşma yüksək akademik nəticələrin əldə olunmasında mühüm rol oynayır (Ng, 2017).

Böyük Britaniya təhsil sistemində isə məktəbdaxili qiymətləndirmə daha çox şagirdin özünüqiymətləndirmə və qarşılıqlı qiymətləndirmə bacarıqlarının inkişafına yönəlmişdir. "Self-assessment" və "peer assessment" modelləri şagirdin təlim prosesində aktiv iştirakını təmin edir. Bu yanaşma şagirdin yalnız müəllimdən asılı olmadan öz inkişafını dəyərləndirməsinə imkan yaradır və tənqidi düşünmə bacarıqlarını gücləndirir (Assessment Reform Group, 2002).

Azərbaycan və xarici ölkələrin məktəbdaxili qiymətləndirmə təcrübələrinə nəzər saldıqda, hər iki sistemdə əsas məqsədin şagirdin inkişafını izləmək olduğu müşahidə edilir. Lakin bu məqsədə yanaşma tərzi və tətbiq mexanizmləri arasında müəyyən fərqlər mövcuddur. Azərbaycan təhsil

sistemində qiymətləndirmə daha çox strukturlaşdırılmış və normativ çərçivələrə əsaslandığı halda, bir sıra xarici ölkələrdə bu proses daha çevik və fərdiləşdirilmiş formada həyata keçirilir (OECD, 2023).

**Nəticə**

Azərbaycan məktəblərində qiymətləndirmə əsasən kiçik və böyük summativ qiymətləndirmələr, eləcə də formativ qiymətləndirmə vasitəsilə aparılır (Azərbaycan Respublikası Təhsil Nazirliyi, 2018; Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu, 2009). Bu model şagird nailiyyətlərinin sistemli şəkildə ölçülməsinə imkan yaratsa da, bəzi hallarda nəticəyönümlü yanaşmanın üstünlük təşkil etməsi müşahidə olunur. Yəni qiymətləndirmə bəzən prosesdən çox yekun nəticəyə fokuslanır. Halbuki müasir pedaqoji yanaşmalarda prosesin özü nəticə qədər əhəmiyyətli hesab edilir (Brookhart, 2013). Xarici ölkələrdə, xüsusilə Finlandiya və Böyük Britaniya təcrübəsində qiymətləndirmə daha çox şagirdin fərdi inkişafına yönəldilir. Burada qiymətlərdən çox şagirdə verilən keyfiyyətli rəy (feedback) ön plana çıxır. Məsələn, Finlandiyada müəllimlər şagirdin səhvlərini yalnız qeyd etmir, həm də onun necə inkişaf edə biləcəyini konkret şəkildə izah edirlər. Bu yanaşma şagirdin motivasiyasını artırır və öyrənmə prosesini daha səmərəli edir (Sahlberg, 2015).

Azərbaycan təcrübəsində isə son illərdə müsbət dəyişikliklər müşahidə olunur. Xüsusilə kurikulum islahatlarından sonra formativ qiymətləndirmənin rolu artmış, müəllimlərin şagirdə davamlı rəy verməsi təşviq edilmişdir. Bununla belə, bəzi məktəblərdə hələ də qiymətləndirmənin formal xarakter daşıdığı, bal yönümlü yanaşmanın üstünlük təşkil etdiyi hallar qalmaqdadır (Məmmədov, 2019). Digər mühüm fərq isə şagirdin qiymətləndirmə prosesində iştirak səviyyəsi ilə bağlıdır. Xarici ölkələrdə "self-assessment" və "peer-assessment" modelləri geniş tətbiq olunduğu halda, Azərbaycanda bu yanaşmalar hələ tam sistemli şəkildə formalaşmamışdır. Bu isə şagirdin öz öyrənmə prosesinə daha aktiv şəkildə qoşulması imkanlarını müəyyən qədər məhdudlaşdırır. Bununla belə, hər iki sistemdə ümumi məqsəd eynidir: təhsil keyfiyyətini artırmaq və şagirdin inkişafını təmin etmək. Fərq isə əsasən bu məqsədə çatmaq üçün istifadə olunan metod və yanaşmalardadır. Bu baxımdan beynəlxalq təcrübənin öyrənilməsi Azərbaycan təhsil sistemində qiymətləndirmə mexanizmlərinin daha da təkmilləşdirilməsi üçün mühüm imkanlar yaradır.

Xarici ölkə təcrübəsində isə məktəbdaxili qiymətləndirmə daha çox inkişafyönümlü və şagird mərkəzli model üzərində qurulmuşdur. Finlandiya, Sinqapur və Böyük Britaniya kimi ölkələrdə qiymətləndirmə prosesində şagirdə verilən keyfiyyətli rəy, özünüqiymətləndirmə və qarşılıqlı qiymətləndirmə üsulları əsas yer tutur (Sahlberg, 2015; Black və Wiliam, 1998). Bu yanaşma şagirdin həm akademik, həm də şəxsi inkişafına müsbət təsir göstərir.

Ümumilikdə, məktəbdaxili qiymətləndirmənin effektiv təşkili təhsil keyfiyyətinin yüksəldilməsində həlledici rol oynayır. Bu sahədə beynəlxalq təcrübənin öyrənilməsi və yerli şəraitə uyğunlaşdırılması gələcək inkişaf üçün mühüm istiqamət kimi çıxış edir.

**Ədəbiyyat**

1. Abbasov, N. (2021). *Müasir pedaqoji qiymətləndirmə metodları*. Elm və Təhsil.
2. Ağayev, Ə. (2018). *Təhsil prosesində qiymətləndirmə və onun pedaqoji əhəmiyyəti*. ADPU nəşriyyatı.
3. Azərbaycan Respublikası Təhsil Nazirliyi. (2018). *Ümumi təhsil kurikulumu və qiymətləndirmə qaydaları*.
4. Assessment Reform Group. (2002). *Assessment for Learning: 10 Principles*. Cambridge University Press.

5. Black, P., & Wiliam, D. (1998). *Inside the Black Box: Raising Standards Through Classroom Assessment*. King's College.
6. Brookhart, S. M. (2013). *How to Create and Use Rubrics for Formative Assessment*. ASCD.
7. Əhmədov, R. (2022). *Azərbaycan təhsil sistemində qiymətləndirmə islahatları*. Təhsil Araşdırmaları Mərkəzi.
8. Hüseynzadə, M. (2020). *Məktəbdaxili qiymətləndirmənin müasir problemləri*. Elm.
9. Məmmədov, C. (2019). *Kurikulum və qiymətləndirmə sistemi*. ADPU nəşriyyatı.
10. Ng, P. T. (2017). *Learning from Singapore: A Curriculum Perspective*. Springer.
11. OECD. (2023). *Education at a Glance 2023*. OECD Publishing.
12. Sahlberg, P. (2015). *Finnish Lessons 2.0: What Can the World Learn from Educational Change in Finland?* Teachers College Press.
13. *Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu*. (2009, son dəyişikliklər 2023).